**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**
**PUBLİK HÜQUQİ ŞƏXS**

**Təsdiq edirəm**
**ADMİU-nun rektoru**
**___________professor C.E.Mahmudova**

## AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİNİN

# ELMİ METODİKİ ŞURASININ

# ƏSASNAMƏSİ

**Azərbaycan Dövlət Mədəniyyət və**
**İncəsənət Universitetinin Elmi Şurasının**
**_15_ fevral 2024-cü il tarixli iclasının**
**___06____№-li protokolu ilə təsdiq edilmişdir**

**Bakı - 2024**

**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİNİN**

**ELMİ-METODİKİ ŞURASININ**

**ƏSASNAMƏSİ**

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (Bundan sonra Universitet) Elmi-Metodiki Şurası (Bundan sonra EMŞ) tədris prosesinin elmi-metodiki təminatını yüksəltməyə xidmət edən, ictimai əsaslarla fəaliyyət göstərən istiqamətverici-məsləhət orqanıdır.

1.2. EMŞ Universitetin Nizamnaməsi: 4.7 bəndinə əsasən Elmi Şurasının qərarı ilə yaradılır. Onun tərkibinə prorektorlar, dekanlar, kafedra müdirləri, müəyyən pedaqoji və elmi-metodiki iş təcrübəsinə malik olan elmi istiqamətlər üzrə yüksək ixtisaslı mütəxəssislər daxildir.

1.3. EMŞ-ya bir qayda olaraq Elm və yaradıcılıq- işləri üzrə prorektor rəhbərlik edir.

1.4. EMŞ-nın sənədləşmə məsələləri Elm və yaradıcılıq işləri üzrə prorektorluğun nəzdində fəaliyyət göstərən Elm və doktorantura şöbəsinə aiddir.

1.5. Elmi-Metodiki Şuranın tərkibi Universitet Elmi Şurası tərəfindən açıq səsvermə qaydasında sadə səs çoxluğu yolu ilə universitetin yüksəkixtisaslı əməkdaşları arasından seçilir.

1.6. EMŞ öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının Təhsil haqqında Qanununa, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin əmrlərinə və kollegiya qərarlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 4 dekabr tarixli 527 nömrəli qərarı ilə təsdiq edilmiş "Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası haqqında Əsasnamə"yə, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 12 avqust tarixli 301 nömrəli publik hüquqi şəxsə çevrilməsi haqqında qərarına, bu qərara əlavə olaraq təsdiq edilmiş ADMİU-nun Nizamnaməsinə, ADMİU-nun Elmi Şurasının və rektorunun qərar və əmrlərinə, və digər normativ hüquqi aktlara əsaslanır.

1.7. Elmi-Metodiki Şuranın səlahiyyət müddəti 3 (üç) ildir.

1.8. Şura özünün ilk iclasında sədrin müavinini və şuranın katibini seçir. Şura üzvləri arasında iş bölgüsü aparılır və Şuranın illik iş planı qəbul edilir.

1.9. Şuranın hər hansı üzvü Universitet əməkdaşlığından çıxdıqda Şuranın da tərkibindən çıxarılır.

## 2. Elmi-Metodiki Şurasının vəzifələri

**2.1. EMŞ-nin vəzifələri aşağıdakılardır:**

2.1.1. ADMİU-da aparılan elmi tədqiqat işlərini əlaqələndirmək, təkrarçılığı aradan qaldırmaq;

2.1.2. Universitetin professor-müəllim heyətini elmi tədqiqatlara cəlb etmək;

2.1.3. Elmi-tədqiqat işlərinin həyata keçirilməsinə nəzarəti təmin etmək, onların nəticələrinin və səmərəliliyinin yüksəldilməsini təmin etmək;

2.1.4. Elmi fəaliyyətin yeni meyarlarını müəyyən etmək və onların həyata keçirilməsi üçün elmi zəmin yaratmaq;

2.1.5. Elmi tədqiqatların mühüm nəticələrinin təcrübədə istifadə edilməsini təşviq etmək;

2.1.6. Elmi-tədqiqat işlərinin mühüm nəticələrinin elektron sistemlərə inteqrasiyasını təmin etmək;

2.1.7. Elmi-tədqiqat işlərinin mühüm nəticələrinin ölkə və beynəlxalq səviyyəli elmmetrik təhlillərin nəticələrinə uyğun təşkilini təmin etmək;

2.1.8. Müxtəlif səviyyələrdə elmi fəaliyyətin qiymətləndirilməsi üçün müasir üsullar işləyib hazırlamaq və təsdiq etmək;

2.1.9. Elmi fəaliyyətin stimullaşdırılması üçün təkliflər hazırlamaq.

## 3. Elmi-Metodiki Şurasının həll etdiyi əsas məsələlər

3.1.ADMİU-da yerinə yetiriləcək elmi-metodiki işlərin əsas istiqamətlərini müəyyənləşdirən, əsas təşkilati və tədris-metodiki məsələlər üzrə elmi cəhətdən əsaslandırılmış tövsiyələr işləyib hazırlayır;

3.2.Hər bir ixtisasa uyğun tədris-metodiki sənədlərin hazırlanması və həyata keçirilməsi üçün təkliflər hazırlayır ;

3.3.Universitetdə hazırlanan fənlər üzrə dərslik, dərs vəsaitləri, metodik vəsait, monoqrafiya, proqramların çapa təqdim edilməsi üçün müzakirəsini təşkil edir;

3.4.Magisrt, fəlsəfə və elmlər doktoru dissertasiyalarının mövzularının əlaqələndirilməsini təşkil edir;

3.5.Kafedraların elmi-tədqiqat işlərinin aktuallıq baxımından koordinasiyasını həyata keçirir;

3.6.Gələcəkdə kadr hazırlığı nəzərdə tutulan və cari dövrdə fəaliyyətdə olan ixtisasların təkmilləşdirilməsi və siyahısının tərtib edilməsi prosesində iştirak edir;

3.7.ADMİU-nun fakültələrində, kafedralarında və professor-müəllim heyətinin fəaliyyətində respublika daxilində, eləcə də yaxın və uzaq xaricdə tətbiq edilən tədris prosesinin təkmilləşdirilməsinə dair təcrübələri öyrənir, bu təcrübələri (konfranslar, seminarlar, elmi-metodiki nəşrlər, metodiki bülletenlər, pedoqoji yaradıcılıq sərgiləri və s.) müxtəlif tədbirlərin həyata keçirilməsi vasitəsilə yayılmasını təşkil edir;

3.8.Tələbələrin və müəllimlərin dərslik, dərs vəsaitləri və tədris-metodiki ədəbiyyatla təminatı məsələsini araşdırır və nəzarət edir;

3.9.Fakültələrin elmi-metodiki şuralarının işini istiqamətləndirir (koordinasiya edir);

3.10. İstiqamətverici elmi-metodiki materialların hazırlanması, nəşr edilməsi və həyata keçirilməsi sistemini təşkil edir;

3.11. Vacib elmi-metodiki problemlərin ADMİU-nun Elmi Şurasında, eləcə də Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin elmi-metodiki strukturlarında müzakirə edilməsi üçün məlumat hazırlayır.

**4. Elmi-Metodiki Şurasının fəaliyyətinin təşkili**

4.1. EMŞ içlaslarını tədris ili ərzində ayda bir dəfədən az olmayaraq həyata keçirir;

4.2. EMŞ öz qərarlarını kollegial sürətdə açıq səsvermə yolu ilə səs çoxluğu prinsipi əsasında qəbul edir;

4.3. EMŞ-nın iclasları protokollaşdırılır. Protokol sədr və katibin imzaları ilə təsdiq edilir;

4.4. EMŞ-nın üzvlərinin təşkilati və tədris metodiki fəaliyyəti ADMİU-nun müəllimlərinin fərdi planlarında tədris və təşkilati-metodiki işlər bölmələrində öz əksini tapır;

4.5. EMŞ-nın işinin təşkili və aparılmasına ADMİU-nun Elm və yaradıcılıq işləri üzrə prorektoru nəzarət edir. Elm və yaradıcılıq işləri üzrə prorektor qəbul edilmiş qərarların icrasına və həyata keçirilməsinə nəzarət edir.

4.6. Hər tədris ilinin sonunda Elmi-Metodiki Şuranın sədri qurumun illik fəaliyyəti barədə Universitet Elmi Şurasında hesabat verir.